AZƏRBAYCAN RESPUBLİKASININ
NAZİRLƏR KABİNETİ

SƏRƏNCAM

“Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin və “Azərsığorta” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 31 yanvar tarixli 2459 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 fevral tarixli 95s nömrəli Sərəncamı”nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq:

1. “Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin və “Azərsığorta” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 31 yanvar tarixli 2459 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 fevral tarixli 95s nömrəli Sərəncamında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissədən (birinci halda) “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi” sözləri çıxarılsın, həmin hissə müvafiq olaraq 2.1-ci bənd hesab edilsin və bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 2-ci hissə (2.1-ci bənd istisna olmaqla) əlavə edilsin:

“2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

2.2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 61.8-ci maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin ləğvetmə balansını və qalıq əmlakın bölünməsi planını əks etdirən hesabatı təsdiq etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.”.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 3 ” “ noyabr ” 2026-cı il

№ 824s